https://doi.org/10.59849/2410-5600.2025.2.64

UOT: 82-09

**Gülarə Əliyeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: alıyevagulara89@gmail.com*

# SÜLEYMAN SANİ AXUNDOV: UŞAQ ƏDƏBİYYATINDA MƏNƏVİ-ƏXLAQİ DƏYƏRLƏRİN TƏRƏNNÜMÜ

**Xülasə**

Bu məqalədə realist dramaturq və nasir, görkəmli uşaq yazıçısı Süleyman Sani Axundovun uşaq ədəbiyyatı sahəsindəki yaradıcılıq irsi elmi-nəzəri aspektdən araşdırılır. Tədqiqatda yazıçının maarifçilik və pedaqoji baxışlarının milli uşaq nəsrinə təsiri, onun "Qorxulu nağıllar" silsiləsinin ideya-bədii özlüyünü əks etdirən humanist və əxlaqi prinsiplər şərh edilmişdir. Axundovun əsərlərində təhsil, elm, ədalət və humanizm kimi ideyalar çox vaxt sosial bərabərsizlik və cəhalətə qarşı qoyulur. Bu baxımdan onun yaradıcılığı nəinki uşaq ədəbiyyatının formalaşmasında, həm də milli maarif əfkarının təşəkkülündə mühüm yer tutmuşdur. Məqalədə yazıçının tərbiyəvi ideyalarının müasir uşaq ədəbiyyatına təsiri və onun maarifçi-mənəvi irsinin bugünkü aktuallığı da dərindən təhlil edilir.

***Açar sözlər:*** *S.S. Axundov, maarifçilik, pedaqoji baxış, uşaq ədəbiyyatı, realizm, humanizm*

## Giriş

*Azərbaycan uşaq ədəbiyyatının formalaşması XIX əsrin sonları və XX əsrin əvvəllərində milli maarifçilik hərəkatının inkişafı ilə paralel aparıcı istiqamətlərdən birinə çevrildi. Uşaq ədəbiyyatının böyük nümayəndələrindən biri olan Süleyman Sani Axundov bu sahənin bünövrəsini qoyan yazıçılar sırasındadır. O, uşaq tərbiyəsini milli-mənəvi intibahın zəruri şərti hesab edir, yazıçı fəaliyyətini maarifçilik ideyaları ilə bütövləşdirirdi. Onun əsərlərində təhsil, ədalət, xeyirxahlıq, sədaqət kimi dəyərlər təbii şəkildə şəxsiyyət tərbiyəsinin mühüm komponenti kimi qələmə alınır.*

Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində realist dramaturq və nasir, görkəmli uşaq yazıçısı kimi daxil olan Süleyman Sani Axundovun bədii irsi qiymətli və zəngindir. Onun yaradıcılıq yolu XX əsrin ilk rübünü, sinfi vuruşlar və ziddiyyətlərlə səciyyələnən illərini əhatə etdiyi üçün bu mühüm ictimai – tarixi mərhələlər ədibin yaradıcılığında dərin iz buraxmışdır.

Süleyman Sani Axundov 1875-ci ildə Şuşa şəhərində doğulmuş və uşaqlığını orada keçirmişdir. On yaşında ikən dayısının köməkliyi ilə Qori müəllimlər seminariyası yanında ibtidai məktəbə daxil olur, 1894 – cü ildə Qori seminariyasını müvəffəqiyyətlə bitirib müəllimlik fəaliyyətinə başlayır. Pedoqoji sahədə ilk addımlarını Süleyman Sani Bakıda atır; əvvəllər sıravi müəllim, sonra məktəb direktoru olur. O da A. Şaiq, S. Qənizadə, M.Ə. Sabir və başqaları kimi xalq maarifinin inkişafı

yolunda bir çox çətinliklərlə qarşılaşır. Bütün həyatı boyu həm maarif, mədəniyyət, həm də ədəbiyyat cəbhəsndə çalışır, qələm çalır. Gənc nəslin yeni ruhda tərbiyəsi uğrunda, gerilik və ətalətin aradan qaldırılması yolunda ciddi səy göstərir. S.S. Axundov öz həmkarları ilə birlikdə dərsliklər, proqramlar hazırlamaqla yanaşı uşaqlar üçün gözəl, tərbiyəvi xarakterli hekayələr də yazır, uşaqlara məxsus "Məktəb", "Dəbistan" jurnallarında bədii əsərləri ilə fəal iştirak edir [ 5, s.235].

**Azərbaycan uşaq ədəbiyyatı**

Azərbaycan uşaq ədəbiyyatının təşəkkülü ilk uşaq mətbuatının yaranması ilə əlaqədardır. İlk uşaq mətbuatı – "Maarif", "Qırmızı günəş", "Aydınlıq", "Qızıl Şərq" , "Qızıl gənclik" , "Gənc işçi", "Məktəb", "Pioner" və s. qəzet və jurnallar öz ətrafına yazıçı, müəllim, tələbə və başqa ədəbiyyat həvəskarlarından ibarət böyük bir ziyalı dəstəsi toplamışdı. Onların həmin mətbuat səhifələrində çap olunmuş ədəbi – bədii yazılarının başlıca mövzusu inqilabın qələbəsi, onun doğurduğu yeni ictimai münasibətlər, həyat və məişətdə yaranmağa başlayan bütün yeniliklər idi. Uşaqlarda gözəl hisslər və yaxşı vərdişlər tərbiyə etmək, onlarda kiçik yaşından zəhmətə, elmə, biliyə böyük həvəs oyatmaq, yaşadığı dövr, əhatə olunduğu mühit haqqında həqiqəti söyləmək bir zərurət kimi meydana çıxmışdı. Eyni zamanda köhnə həyatla yeni həyatın müqayisəsi, hər addımda yeniliyin özünü göstərən üstünlükləri, sahibsiz uşaqların tərbiyəsi və məktəblərə cəlb olunması, yaranmaqda olan ozamankı pioner təşkilatlarının işi bədii ədəbiyyatda öz əksini tapmalı idi.

İlk təşəkkül illərində uşaq nəsrinin yaranmasında iki nəslin nümayəndələri iştirak edirdilər. Birinci nəsli təmsil edənlər zəngin ədəbi təcrübəsi olan C. Məmmədquluzadə, Ə. Hqaverdiyev, S.S. Axundov, A. Şaiq, T. Şahbazi, C. Cabbarlı, C. Hüseyn və başqaları idi. Bu yazıçılar öz yaradıcılıq üsullarına sadiq qalmaqla bərabər müasir mövzulara da meyl göstərir, onları yeni həyatın tələbləri baxımından həll etməyə çalışırdılar [4, s.3].

**Süleyman Sani Axundovun pedaqoji görüşləri və maarifçilik fəaliyyəti**

Axundovun pedaqoji baxışlarının formalaşması onun müəllimlik fəaliyyəti ilə birbaşa əlaqəlidir. O, Qori seminariyasında qazandığı bilik və təcrübəni Azərbaycan reallıqlarına tətbiq edərək, maarifin xalqın sosial inkişafında mühüm rol oynadığına inanırdı. Yazıçının fikrincə, təhsil sadəcə savad qazanmaq vasitəsi deyil, insanın əxlaqi kamilliyə aparan sosial missiyadır. Onun məqalə və hekayələrindən məlum olur ki, qadın və qız təhsili məsələsini də ictimai bərabərliyin əsas şərti kimi qiymətləndirirdi.

Süleyman Sani hekalərində uşaq təbiətinə xas olan lirizm daha səciyyəvidir. Bu lirizm ədibin istər yaşadığı mühitdən, istərsə müasir həyatdan aldığı mövzuların məzmunundan doğurdu. Yazıçını uşaqların həyatı, taleyi, tərbiyəsi və təhsili daha çox maraqlandırırdı. O, hekayələrində zülmət səltənətidə Nürəddin, Tusi, Abbas, Zeynəb, Əhməd, Məleykə və Əşrəf kimi uşaqların başına gələn "qorxulu" əhvalatlatları canlı lövhələrlə təsvir etmişdir. S. S. Axundovun qələmə aldığı "Qan bulağı" (1923), "Ümid çırağı" (1923), "Cəhalət qurbanı" (1923), "Qatil uşaq" (1924), "Nə üçün" (1925) əsərlərinin mövzusunu da qaranlıq mühitdən almışdır [1]. O, bu hekayələrində feodal mühitin üfunətli aləmini, zərərli adətlərini ifşa edir, yeniliyə can atan mübariz gəncliyi bu ətalət dünyasına qarşı qoyurdu. Onun kiçik qəhrəmanları bu mübarizədə bəzən büdrəsələr də sabaha ümidlə baxırdılar.

"Qorxulu nağıllar" realist ədəbiyyatımızın tarixində S.S. Axundovu bir hekayəçi, nasir kimi daha çox tanıtmışdır. "Qorxulu nağıllar" silsiləsinə ədibin beş əsəri daxildir: "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin", "Qaraca qız", "Əşrəf" [6,s.14]. Balacaların həyatından bəhs edən bu əsərlər şagirdlərin bədii oxuya olan ehtiyacı, estetik tərbiyəsi ilə əlaqədar olaraq xalq nağılları formasında yazılmış, uşaqlara məxsus "Məktəb" jurnalında 1912 – 1914 – cü illərdə çap olunmuşdur. Hekayələrdən dördü qəzet oxumağı, maarifi, mədəniyyəti çox sevən, balalarının təlim və təhsilinə bilavasitə nəzarət edən Hacı Səməd adlı kişinin dilindən nağıl olunur. Onun balaca oğlu Məmmədlə

qızı Fatmaya danışdığı əhvalat keçmişin acınacaqlı həyat tərzindən alınmış və uşaqları vahiməyə salan hadisələrlə zəngindir. Ona görə də əsərlər "Qorxulu nağıllar" adlanır.

"Əhməd və Məleykə" hekayəsində ədib balaca oxucuların diqqətini Nurəddin adlı yoxsul bir kişinin ailəsinə yönəldir. Nurəddin ehtiyac üzündən arvadı Xədicəni, uşaqları Əhmədlə Məleykəni kənddə qoyub kəsbkarlıq üçün şəhərə gedir. Onun faciəli ölümü, onsuz da ehtiyacda olan ailəni dilənçi kökünə salır. Bu ailənin timsalında ədib mövcud feodal həyatının acınacaqlı, miskin mənzərəsini real - əks etdirir, yoxsulların halına acıyır. Əsər ehtiyac və aclığa qarşı mələklərdən imdad gözləyən Xədicəyə və onun bir tikə çörəyə möhtac olan uşaqlarına oxucuda dərin rəğbət hissi oyadır. Nəticədə, bu ailəyə kömək əli uzadan səyyah Cəmaləddin bir insanpərvər kimi rəğbət qazanır, ucalır. Bununla da yazıçı balaca uşaqlarda, məktəblilərdə sahibsizlilərə, ehtiyac içində olanlara kömək etmək kimi humanist duyğular qəlqin edir. Hadisəni danışan Hacı Səməd öz uşaqlarına bir tərəfdən həyatı, onun çətinliklərini öyrədir, ibrət dərsi verirsə, digər tərəfdən də onlarda bu xeyirxah səyyahın rəhmdilliyini, gözəl insani sifətlərini görmək istəyir [2, s.267 ].

Axundovun maarifçilik baxışları onun dərslik tərtibəsində, "Məktəb" jurnalı ilə işbirliyində, uşaq auditoriyası üçün qələmə aldığı hekayələrdə açıq şəkildə özünü göstərir. Onun fikrincə, tərbiyə prosesi ədəbiyyat vasitəsilə daha effektiv ola bilər; çünki bədii söz uşaq şüuruna bilavasitə təsir edir, hissi təkamülü istiqamətləndirir.

Yazıçının maarif konsepsiyasının möhkəm bədii ifadəsini tapdığı əsərlər silsiləsində "Qorxulu nağıllar" xüsusi yer tutur. Bu silsilədəki hər bir hekayə – istər "Nurəddin", istər "Qaraca qız", istər "Əhməd və Məleykə" – sosial ziddiyyətlər fonunda insanpərvərlik, sədaqət, xeyirxahlıq kimi dəyərləri uşaqlara aşılamaq niyyəti daşıyır. Axundovun uşaq obrazları həm əxlaqi kamilliyin, həm də maariflənmənin simvoluna çevrilir.

S.S. Axundov "Qorxulu nağıllar" da tərbiyəni, xüsusilə sağlam ailə tərbiyəsini insan həyatını istiqamətləndirən mühüm amillərdən biri kimi təsvir edir. Bu cəhətdən ədibin "Nurəddin" hekayəsi daha səciyyəvidir. "Əhməd və Məleykə", "Abbas və Zeynəb" əsərlərində olduğu kimi "Nurəddin" hekayəsinin qəhrəmanı da yoxsul təbəqədən seçilmiş, hadisə yetim uşaqların həyatından alınmışdır. Əsərin süjet xətti "Yaxşılıq elə əvəzini görərsən", "Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir" kimi xalq məsəlləri əsasında qurulmuş, hekayə bu fikri təsdiq edən həyat hadisələrinin bədii ifadəsinə çevrilmişdir. Ədibin yaratdığı tipik, mükəmməl məktəbli surəti (Nurəddin) yaxşı ailə tərbiyəsi görmüş uşaqdır. Bu tərbiyənin müsbət təsiri həyatda onun yoluna işıq saçır. Atası Hacı Nəsir maarifi sevən, rəhmdil adamdır, anası Həlimə gözəl, xoşxasiyyət, həlim təbiətli bir qadındır. Hələ əsərin əvvəlində Həlimə istəkli övladının boynundan ipəyə bükülmüş bir kitab asır ki, böyüyəndə oxusun. Bu, Hacı Nəsirin yaxşılığı əvəzində Rəhimin hədiyyə verdiyi "Gülüstan" kitabıdır. Sanki maarifpərvər yazıçı valideynlərə uşaqların boynundan dua, gözmuncuğu əvəzinə kitab asmağı tövsiyə edir. Ana və atadan erkən yetim qalan Nurəddini həyat bir məngənə kimi sıxır, bəzən lap bədbinləşdirir, əldən - ələ, haldan – hala salır, çətin imtahanlardan keçirir. Ağıllı, qorxmaz, dözümlü və iradəli Nurəddin valideynlərinin yaxşılıq etdiyi adamların köməyi sayəsində həyatın sərt sınaqlarından çıxır, ölümdən xilas olur. Ata – anasının ölümündən sonra yalnız taleyin ağuşuna atılan Nurəddini ögey anası Gülpəri nə vasitə ilə olur – olsun məhv etmək, var – yoxuna sahib olmaq istəyir. Alçaq niyyətlərini həyata keçirməkdə Gülpəriyə əmisi oğlu, gələcək əri Əmiraslan kömək edir. Əmiraslan hekayədə nadanlığın, tərbiyə və təhsildən qaçan cahillərin tipik surəti, rəmzidir. O, quldur və canidir, maarifə, məktəbə biganəlik nəticədə onu şikəst, bədbəxt edir [3, s.113]. Onun zənnincə, oxuyanlar aciz və qorxaq olurlar. Bu çürük fikri ədib, Nurəddinin ağıllı cavabı ilə rədd edir: "Xeyr, səhv edirsiniz, oxumayan uşaq qorxaq olar. Oxuyan uşağın elmi olar. Hər şeyin sirrini bilər, ona görə də qorxmaz".

**"Qorxulu nağıllar" silsiləsinin ideya-bədii sistemi**

S.S. Axundovun "Qorxulu nağıllar" silsiləsi Azərbaycan realist uşaq ədəbiyyatının klassik nümunəsi sayılır. Bu silsilədəki hekayələrin bədii özlüyü xalq nağılları formasında təqdim edilən dərin sosial və əxlaqi məzmunla səciyyələnir. Yazıçı bu formal strukturdan istifadə etməklə xalq təfəkkürü ilə yeni realizm estetikasını sintez etməyə nail olur.

Hekayələr sosial reallığın uşaq talelərində inikası, cəhalətə qarşı intellektual və əxlaqi mübarizəni ön plana çıxarır. Məsələn, "Qaraca qız" hekayəsində təbəqələşmənin faciəli nəticələri, varlı və yoxsul siniflər arasında sosial ədalətsizlik məsələsi bədii şəkildə ifşa olunur. Yazıçı bu əsərlərdə uşaqları sadəcə oxumağa deyil, düşünməyə, qiymətləndirməyə, dəyərlər sistemini qavramağa səsləyir.

"Nurəddin" hekayəsində isə müəllif maarifin və təhsilin insan həyatını necə dəyişdirdiyini göstərir. Nurəddinin timsalında oxumağın, elmə sahib olmağın insanı qorxaq deyil, cəsarətli və bilikli etdiyini göstərir. Bu əsərlərdə maarifləşmə sadəcə ideya deyil, həm də mənəvi yüksəliş vasitəsidir.

"Qorxulu nağıllar" silsiləsində yüksək ideya – bədii xüsusiyyətləri ilə müəllifinə daha böyük nüfuz qazandıran "Qaraca qız" əsəridir. Qaraca qız – Tutu talecə bundan əvvəlki hekayələrin qəhrəmanlarından seçilmir. O da uşaqkən ata – anasını itirir, yadların himayəsində böyüyür, həyatın acısını dadır, bərabərsizliklik dünyasının, haqsızlığın, ədalətsizliyin qurbanı olur.

Təbəqələşmə və bərabərsizlik Qaraca qızla Ağca xanımın taleyi, həyat, məişət tərzi fonunda böyüyüb şaxələnir, onlardan hər biri mövcud feodal ictimai mühitinin müəyyən, hətta biri digərinə zidd olan qütbünü təmsil və təcəssüm etdirən bitkin xarakterə, parlaq bədii obraza çevrilir. Qaraca qızın ata - anası təbii fəlakət nəticəsində öldükdən sonra kimsəsiz uşaq bir qaraçı dəstəsinin əlinə düşür. Dərisinin rənginə uyğun olaraq, qaraçılar bu yetim uşağın adını Qaraca qız qoyurlar.

Qaraçı dəstəsinin başçısı Yusif kobud, rəhmsiz və zülmkar adamdır. Qaraca qızı görmək belə istəmir. Ancaq arvadı Yasəmən qızın oynayıb pul toplamaqla onlara xeyir verəcəyini dedikdə Yusif bu yetim qızı qəbul edir. Lakin Yasəmən öldükdən sonra isə o, zalım Yusifin sonsuz zülm və təhqirlərinə dözməli olur. Qaraca qızın əsas faciəsi, bu faciə ətrafında cərəyan edən mürəkkəb həyat hadisələri Yusifi ayı parçalandıqdan sonra daha da dərinləşir, təsirli bir şəkil alır. Təbiətcə çox qəddar bir adam olan Hüseynqulu ağanın onu mağaradan tapıb öz evində qulluqçu saxlaması Qaraca qızın qara günlərinə başlanğıc olur.

"Qaraca qız" hekayəsində diqqəti cəlb edən mühüm cəhət varlılar və yoxsullar, hakimlər və məhkumlar aləmi, bunlardan hər birinin öz təbiəti, adət - ənənəsi, əxlaqı, davranışları vəs. problemlərdir. Hüseynqulu ağa ilə Pəricahan xanım, Piri baba ilə Qaraca qız cəmiyyətin əks qütblərinə mənsub real surətlərdir. Birincilər nə qədər zülmkar, qəddar və rəzildirsə, sonrakılar bir o qədər mülayim, xoşrəftar, təmiz ürəkli, insanpərvər adamlardır. Bəyzadələr başqalarına divan tutmaqdan, əzab - əziyyət verməkdən, ikincilər yaxşılıq etməkdən, özgələrə yardım əli uzatmaqdan zövq alırlar. Bu ictimai münasibətlər və sosioloji fərq bəyzadələrin xoşbəxtliyinə, Qaraca qızın bədbəxt liyinə, vaxtsız ölümünə səbəb olur [3, s.296]. Əsər uşaqlarda belə bir hiss oyadır ki, əsl dost, başqasının yolunda canını qurban verən böyük qəlbli adamlar məhz yoxsullar arasından, əzilənlər içərisindən çıxa bilər. Qaraca qız belə insanlığın, dostluq və fədakarlığın xarakter nümunəsidir. Ağca xanımı ilan vuranda Qaraca qız nə Hüseynqulu ağanın, nə də Pəricahan xanımın ona etdiyi pislikləri düşünür. Onu düşündürən ancaq dostluq, sədaqət xatirinə Ağca xanımı ölümdən qurtarmaqdır. Odur ki qızın yarasındakı ilan zəhərini sorur, onu yenidən həyata qaytarır, özünü isə bu yolda qurban verir. Bu kimsəsiz qızın ölümü Hüseynqulu ağa ilə Pəricahan xanıma əsla təsir etmir. Ancaq Piri baba dərindən sarsılır, göz yaşı töküb bu bədbəxt qızcığazın faciəli taleyinə ürəkdən acıyır, öz xoşbəxt liyi üçün yetim bir qızı məhv edən zülm yuvasına lənətlər yağdırır.

**Axundovun uşaq ədəbiyyatına təsiri və irsinin müasir aktuallığı**

Axundovun bədii və pedaqoji irsi bu gün də müasir uşaq ədəbiyyatı üçün nümunəvi istiqamət kimi qiymətləndirilir. Onun uşaq obrazlarında görülən mənəvi dəyərlər (sədaqət, humanizm, ədalət) bu gün də ədəbiyyatın mühüm ideya resursları sırasındadır. O, uşaq ədəbiyyatının sadəcə əyləndirici deyil, formalaşdırıcı intellektual məkan olduğunu göstərmişdir.

Axundovun yaradıcılığının bugünkü əhəmiyyəti ondadır ki, onun ideyaları cəmiyyətin dəyər sisteminin formalaşmasında mühüm yer tutur. Pedaqoji prinsiplərindən irəli gələrək, o, uşaq tərbiyəsində kitab, elm, oxu və mədəni maariflənmənin rolunu vurğulayır. Bu baxımdan Axundovun irsi müasir pedaqogika və uşaq psixologiyası baxımından da aktual qalmaqdadır.

Onun təsiri ilə sonrakı dövrlərdə M. Dilbazi, A. Şaiq, Q. Namazov kimi yazıçılar uşaq ədəbiyyatında sosial tərbiyə və milli-mənəvi dəyərləri ön plana çıxarmışlar. Bu da göstərir ki, Axundovun yaratdığı ənənə yalnız bir ədəbi məktəb deyil, həm də mənəvi təlimdir.

**Nəticə**

*Nəticə olaraq qeyd edilməlidir ki, Süleyman Sani Axundov realist uşaq ədəbiyyatının banilərindən biri kimi Azərbaycan mədəni-mənəvi tarixində silinməz iz qoymuşdur. Onun uşaq ədəbiyyatı sahəsindəki fəaliyyəti təhsil, əxlaq və maarif prinsiplərinin sintezini təşkil edir. Axundovun bədii irsi milli ədəbiyyatın əxlaqi-estetik istiqamətini müəyyənləşdirmək baxımından əhəmiyyətli elmi dəyərə malikdir. Onun yaratdığı uşaq obrazları və ideya sistemi müasir tədris və tərbiyə modelləri üçün də aktualdır. Yazıçının "Qorxulu nağıllar" silsiləsi bu gün də uşaq ədəbiyyatında humanist düşüncənin, sosial ədalət və mənəvi saflığın bədii ifadəsi kimi qiymətləndirilir.*

*S. S. Axundovun "Qorxulu nağıllar"ı yazıldığı vaxtdan indiyədək uşaqların mütaliə və tərbiyəsində xüsusi rol oynamış Azərbaycan realist uşaq ədəbiyyatının klassik nümunələri sırasına daxil olmuşdur [6,s.12]. Onun uşaqlar üçün yazdığı hekayələr maraqla oxunur. Bu əsərlərdə bizə göstərmək istədiyi uşaqların yaxşı sifətləri çətin şəraitdə daha tez nəzərə çarpır. Onlar bir çətinliklərdən qurtarıb o birinə düşürlər, öz ağıl və fərasətləri ilə nicat yolu tapır, ölümlə pəncə - pəncəyə gəlir, ruhdan düşmür, yenə qalib gəlirlər.*

*Ümumiyyətlə qeyd etmək vacibdir ki, Süleyman Sani Axundov xeyir – şər qarşıdurması kimi ənənəvi bir motivdən istifadə etməklə ibrətamiz və təsirli dəyərli uşaq ədəbiyyatı nümunələri yaratmışdır.*

**Ədəbiyyat siyahısı:**

1. Abdullayeva, T. Azərbaycan realist nəsrində sosial motivlər / - Bakı: - Elm, - 2012.
2. Axundov, S. S. Seçilmiş əsərləri / - tər. edəni: Nadir Vəlixanov, - Bakı: - Şərq-Qərb, – 2005. - 448s.
3. Axundov, S.S. Hekayələr və pyeslər / - tər. edəni: Nadir Vəlixanov, - Bakı :– 1975. - 345s.
4. Azərbaycan sovet uşaq ədəbiyyatı antologiyası (nəsr) / tərtib edən: Qara Namazov, - Bakı: Gənclik, – 1976. - 356s.
5. XX əsr Azərbaycan ədəbiyyatı (ali məktəblər üçün dərslik) / tərtib edənlər: Mir Cəlal; Firidun Hüseynov, - Bakı: - Maarif nəşriyyatı. – 1982. - 426s.

6. Yusifoğlu, R. Uşaq ədəbiyyatı (ali və orta ixtisas məktəblərinin tələbələri üçün dərslik) / - Bakı: Şirvannəşr, - 2006. - 268s.

**Gulara Aliyeva**

## Suleyman Sani Akhundov: the glorification of spiritual and moral values in children's literature

***Summary***

This article examines the creative legacy of the realist playwright and novelist, the outstanding children's writer Suleiman Sani Akhundov in the field of children's literature from a scientific and theoretical perspective. The study interpreted the influence of the writer's educational and pedagogical views on National children's prose, humanistic and moral principles reflecting the ideological and artistic originality of his cycle "Scary Tales". In Akhundov's works, ideas such as education, science, justice, and humanism are often contrasted with social inequality and ignorance. In this regard, his work occupied an important place not only in the formation of children's literature, but also in the formation of a national educational afkar. The article also analyzes in detail the influence of the writer's educational ideas on modern children's literature and the current relevance of his educational and spiritual heritage.

***Keywords:*** *S.S. Akhundov, enlightenment, pedagogical review, children's literature, realism, humanism*

*Filologiya üzrə fəlsəfə doktoru* ***Xatın Cəfərli***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*